# QƏHRƏMAN XALQIN QƏHRƏMAN OĞLU



Azərbaycan xalqı və bu xalqın da tərkibinə daxil olduğu türk milləti qədim hunlardan başlamış bu vaxta qədər keçən minilliklər ərzində saysız-hesabsız igid, qəhrəman ərənlər, canını vətəninə fəda etmiş xilaskarlar, millət, vətən yolunda min bir əziyyətə qatlaşmış, ömrünü şam kimi əritmişcəfakeşlər yetirmişdir. Türk milləti həmişə həm kədərli, həm də sevincli hadisələrlə dolu olan, lakin şərəfli bir tarix yazmışdır və hər dönəmində də bu tarixi daha çox şərəfləndirmişdir. Elə buna görədir ki, bu millətə, bu xalqa mənsub olan hər kəs öz türklüyü və azərbaycan türkü olduğunagörə fəxr edir, qürurlanır. Bu həm də bir xalqın yetişdirdiyi, zamanın əsas idealı, fenomeni olan qəhrəmanlar, dahilər və öz dövründən də irəlidə dayanan ziyalılar sayəsindədir.

Bizim göz bəbəyimiz kimi əziz olan yurdumuz, canımızdan da çox sevərək əzizlədiyimiz, qoruduğumuz Azərbaycanımızın bu mövzu ilə bağlı öyünməyə sona qədər haqqı var. Elə Azərbaycan türkü kimi bizim də haqqımız var. Yurdumuz zaman-zaman tarixin məngənələrində sıxılsa da, əzilsə də, hətta bəzən yox olma təhlükəsi ilə üz-üzə qalsa da sonda heç nə olmamış kimi alnıaçıq, üzüağ, başıdik dayanmış və bütün əzablara, əziyyətlərə, çətinliklərə mərdanə sinə gərərək hər çətinliyin öhdəsindən gəlmişdir. Təbii ki, bir xalqın bütün bunları etməsi, edə bilməsi üçün həmrəy olması, birlik içində olması, ağsaqqalının, ağbirçəyinin, öndərinin, rəhbərinin olması və onların düzgün istiqamətinin dəstəklənməsi, əməl edilməsi gərəkdir. Təəssüflər olsunki, tariximizdə ayrı-ayrı zaman kəsiklərində, müəyyən vaxt ərzində şeytan dəyirmanına su tökənlərin, onların felinə uyub tələsinə düşənlərin sayəsində bu birlik bizdə çox az bir şəkildə təzahür etmişdir. Birlik içində olan bir xalqın başında da ona layiq, əsl xalqın oğlu deyilə biləcək bir lider, öndər, siyasətçi və uzaqgörən şəxsiyyət olmalıdır. Azərbaycan 30 il bundan əvvəl ən çətin dövründə, dağılıb məhv olma anında həm özündə bu birliyi, həm də bu birliyi quran və layiqli şəkildə idarə edən şəxsiyyəti tapdı. Bununla da özünü məhv olmaqla dünya xəritəsindən silinməkdən xilas etdi. O birlik və o lider olmasaydı, indi hər şey tamam başqa cür olacaqdı. Bəlkə də daxilində ağlayıb-güldüyümüz, qürur duyduğumuz, evlər tikib binalar qurduğumuz bir vətənimiz də olmayacaqdı. Bəlkə də onda biz də olmayacaqdıq. Böyük türk şairi Mehmet Akif Ərsoyun təbirincə desək, "tək dişi qalmış canavar"ların əhatəsində bölünərək, dağılaraq parçalanacaq və bir millət kimi yox olacaqdıq.

Ümumiyyətlə, bir tərəfi Avropaya, digər tərəfi isə dünyanın o başına uzanaraq gedən türk coğrafiyasında, təəssüflər olsun ki, çox az sayda türkdilli xalq öz kimliyini, dilini və adət-ənənələrini qoruyub saxlaya bilmişdir. Əsarətlər içində bitib-tükənən xalqlar öz kimliyini, tarixi şəxsiyyətlərini, dilini, irsini, ən başlıcası, azadlığını itirmişdir. Ancaq biz çox xoşbəxt xalqıq ki, Uca Allah haqqında söz açacağım o əvəzsiz şəxsiyyəti bizim xalqımıza göndərdi və həmin şəxsiyyətin təbirincə desək,onun sayəsində indi "biz azadıq, biz müstəqillik, biz heç kəsdən asılı deyilik və biz öz taleyimizin sahibiyik". Bir millətin tarixdə oxuyacağı heç bir dastanı olmasa belə müstəqil olması, ola bilməsi və bunu qoruya bilməsi onun ən böyük dastanı, gələcəyə nişanəsi, keçmişə hörmətidir. Burada o əvəzsiz fenomenin bir sözü də yada düşür: "Əsas, müstəqilliyi qazanmaqdan çox onu qoruya bilməkdir".

Bəli, haqqında söz açacağım o uzaqgörən, hər bir anı vaxtında çox dəqiqliklə qiymətləndirən öndər, rəhbər, lider, o dahi şəxsiyyət xalqın ona əmanət etdiyi ən gözəl nemət olan müstəqilliyi göz bəbəyi kimi qoruyub saxladı, canı, qanı, sağlamlığı, yuxusuz gecələri, narahat sabahları bahasına və xoşbəxt sabahlar naminə hifz edərək ən qiymətli hədiyyə kimi öz xalqına bağışladı. O, müstəqilliyimizi qorudu, dövlətimizi, dövlətçiliyimizi inkişaf etdirdi. Sağalmaz xəstəlik ona aman vermədikdə isə o, bu müstəqilliyi gələcək nəsillərə, birinci olaraq isə öz davamçısına və yadigarına əmanət etdi. Ona çoxsaylı kitablar yazılıb, barəsində filmlər çəkilib, şəninə musiqilər, mahnılar bəstələnib. Ancaq bütün bunları - bu çəkilən əziyyətləri o böyük insanın dəryalar boyda olan xatirəsi ilə bir tərəziyə qoysaq, onlar bu işıqlı xatirənin yanında bir zərrənin zərrəsi belə olmayacaq. Heç bir zaman da bundan artıq olmayacaq, ola bilməz də. Amma buna rəğmən mən də bu işıqlı, nurlu, gələcəyin əsas idealı olan böyük şəxsiyyətin haqqında yazı yazmaq cəsarətini, nəhayət, özümdə tapabildim. Onun 100 illiyi kimi əlamətdar və bəşəri bir hadisə ərəfəsində bu məqaləmi və digər məqalələrimi onun işıqlı xatirəsinə həsr edirəm. Belə öndərləri Allah-təalanın millətinə 100 ildən bir bəxş etməsi deyimi öz həqiqiliyini təsdiq edir, möhürləyir. Bu insan Azərbaycan xalqının qəlbində ölməzlik, əbədiyaşarlıq qazanaraq orada məskən salmış, xalqımızın ümumilli lideri, xalqımızın xilaskarı, heç bir zaman əvəz olunmaz Ulu Öndəri Heydər Əlirza oğlu Əliyevdir!

Azərbaycan xalqının fəxri, qüruru, yenilməz öndəri və əvəzsiz lideri Heydər Əliyev 1923-cü ilin 10 may tarixində, Azərbaycanın ayrılmaz bir parçası, gözəl guşələrindən biri olan qədim və ulu Naxçıvan torpağında Əlirza adında zəhmətkeş bir dəmiryolçunun ailəsində dünyaya göz açmışdır. Bəzən su kimi ötüb keçən təqvimin günləri arasında elə günlər olur ki, bu bir insan üçün unudulmaz olur. Çünki o vaxt yaşanılan hadisə sadəcə onun həyatında silinməz iz buraxır. Elə günlər olur ki, bir ailə və onun gələcək nəsli bu günü qeyd edir, heç bir zaman unutmur. Ancaq elə günlər var ki, bir ölkə, bir xalq və bir millət üçün əvəzolunmaz dərəcədə əhəmiyyət təşkil edir. 10 may da tarix üçün həmin günlərdən biri, lakin xalqımız üçün bu gün ən birincisidir. Azərbaycan xalqı 10 may 1923-cü il tarixini heç bir zaman unutmayacaqdır. Ulu Öndərimiz necə unudulmazdırsa, onun dünyaya göz açdığı, Allahın onu bizə bəxş etdiyi o gözəl yaz günü də eyni dərəcədə unudulmazdır. Axı o gözəl yaz günü necə yaddaşlardan çıxsın?! Bahar həmin gün öz gözəlliyini tamam başqa cür göstərirdi, yerlər-göylər işığı yanan, tüstüsü qalxan bir kasıb evindən xoş xəbər gözləyir və səbirsizlikdən bir yerdə qərar tuta bilmirdi. Günəş hər tərəfə şəfəq saçırdı.Yaz aylarında dəyişkən hava şəraitinə malik olan Naxçıvanhəmin ilin 10 may günündə tamam başqa, əsl bayram abu-havasında idi. Sanki aydın səma, ucsuz-bucaqsız torpaqlar, ağacların başında yaz nəğməsi söyləyən köçəri qaranquşlar, təzə-tər güllər, çiçəklər - bütün bunların hamısı həmin gün baş verəcək o möhtəşəm bir hadisədən xəbərdar idi. Həmin gün Azərbaycan xalqının yeni əsrinin yeni qəhrəmanı dünyaya göz açacaqdı! Həmin gün saysız-hesabsız yaxşı əməlləri ilə bir xalqın qəlbində ucsuz-bucaqsız taxt quran əvəzsiz bir lider, bir xilaskar, bir öndər dünyaya göz açacaqdı! Həmin gün Ulu Öndərimiz Heydər Əliyev dünyaya göz açacaqdı!

Belə gözəl bir diyarda Allahın belə gözəl bir günündə dünyaya gələn o körpə uşaq həmin gün sadəcə öz ata-anasının, qardaş-bacılarının və ümumilikdə, Əliyevlər ailəsinin, bu ailənin yaxınlarının ümidi, sevinci idi. Xalqımız hələ çox sonralar o körpə uşağı tanıyacaq, sevəcək və vaxtı gələndə o körpə bir xalqı dirçəldəcək, bir xalqı zülmdən, əzabdan, boyunduruqdan xilas edəcək, bu xalqa azadlığı, müstəqilliyi bəxş edəcəkdi. Ancaq hələ o vaxtın gerçəkləşməsi üçün Azərbaycan xalqına 70 il gözləmək lazım idi. Yüz illərlə azadlığa, müstəqilliyə qovuşmağı arzulayıb səbirlə gözləyən və bu yolda neçə-neçə oğlunu, qızını şəhid verən, həsrət çəkən bir xalq yenə gözləməli, yenə həsrət çəkməli idi. Ancaq 1923-cü ilin 10 may günü Əlirza kişinin ailəsində dünyaya gələn o nur üzlü körpə sanki bir günəş kimi, bir ümid işığı kimi o kasıb evini nurlandırdı. Heydər adı qoyulan o körpə doğulduğu andan ümid işığına çevrilmişdi...

O möhtəşəm hadisənin yaz fəslində baş verməsi təbiətin gözəlliyini də qat-qat artırmışdı. Lakin təbiət hər gün belə gül açmır, öz gözəlliklərini göstərmirdi. 1923-cü il və ondan qabaq gələn illər Azərbaycan xalqının bağrına bir ox kimi sancılmışdı. Müstəqilliyini qanı, canı bahasına, güclə əldə edən Azərbaycan onu 2 il belə qoruya bilməmiş və yadellilərə təslim etməyə məcbur olmuşdu. Qaniçən Qırmızı ordu "fəhlə və kəndlilərə azadlıq" şüarları altında utanmazcasına soyqırım planlarını həyata keçirir, beşillik plandan çox bir xalqın soyqırımını həyata keçirmək üçün yüzillik planları belə ortaya qoymaqdan çəkinmirdilər. Fəhlə-kəndliləri öz oyunlarına alət edən bu qaniçən yadellilərin ən çox qırdığı, soyqırım maşınından keçirdiyi təbəqə də elə fəhlə-kəndli təbəqəsi olurdu. Naxçıvan əhalisi o vaxtlar bu qaniçənlərdən çox çəkmişdilər. Əlirza kişinin ailəsi də çox çətin günlər yaşamışdı. O günlər heç bir zaman Naxçıvan xalqının yaddaşından silinə bilməzdi. Çünki hələ də o Naxçıvan camaatı, bütövlükdə, Azərbaycan xalqı o yaraların ağrısından qurtulmamışdı. Bütünlükdə Azərbaycan işğal olunmuşdu, yadellilər Azərbaycanın bir parçası olan Naxçıvana hər gün bir qoşun göndərirdilər. Əvvəl ingilislər, sonra italyanlar yerli Azərbaycan türklərini oyunlarına alət etməyə çalışsalar da, bunu bacara bilməmişdilər. Sonra isə Azərbaycanı işğal edən qaniçən Qırmızı ordu Naxçıvana daxil oldu. Əvvəlcə, Göyçə gölünün sağ hissəsindən başlayan Zəngəzur torpaqları məkrli, məqsədli formada ermənilərə verildi. Nəticədə, Naxçıvanla Azərbaycanın, eləcə də Turan ellərinin bir-biri ilə əlaqəsi kəsildi. Həmin vaxtlar qəsbkarların hətta Naxçıvanı Azərbaycandan alıb Ermənistana vermək cəhdləri də var idi. Körpə bala ceyran kimi anasından ayrılıb ovçuların gülləsinə tuş gələn Naxçıvan camaatı ayrılıq acısından sonra Ermənistana birləşmə xəbərinə dözə bilməmiş və üsyana başlamışdılar. Həmin üsyannəticəsində Naxçıvanın yenidən Azərbaycan torpağı kimi tanınması qırmızılar tərəfindən razılaşdırılmışdı. Əlirza kişi də bu vəziyyətin hamısını yaxından görür və izləyir, özü də hər gün keçdikcə bu hadisələrin bir parçasına çevrilirdi. O, hər şeydən çox övladları və ailəsininsağlamlığını, sakit yaşamalarını düşünürdü. Şəraitləri gündən-günə çətinləşsə belə, "qırmızı terror" öz sərt üzünü Azərbaycanda və ələlxüsus da Naxçıvanda daha çox göstərsə belə onun və ailəsinin ümidi hələ tükənməmişdi. Bundan sonra da tükənməsi o qədər asan olmayacaqdı. Çünki 1923-cü ilin yazının ən təravətli günlərində dünyaya göz açan o gözəl körpə ailənin gələcəyə olan ümidlərini təzələmiş və ilkbahar çiçəkləri kimi təravətləndirmişdi. Heydər doğulandan sonra Əlirza kişi və ailəsi dünyaya və onun sabahına daha ümidlə baxmağa başlamışdı. Onlar yaxşı mənada heç nəyin əvvəlki kimi olmayacağına inanırdılar...

***(Davamı var)***



***Sevindik NƏSİBOĞLU,***
***10-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***